# REGİONLARDA

## ABADLIQ-QURUCULUQ İŞLƏRİ GENİŞ VÜSƏT ALIR



**Son 18 ildə dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızın bütün sahələri dinamik inkişaf edir. Ölkədə aparılan düzgün iqtisadi islahatlar nəticəsində qeyri-neft sektoru özünün əsl inkişaf dövrünü yaşayır.**

**Artıq Azərbaycanda idxaldan asılılıq minimuma endirilmiş və hər il müxtəlif çeşidli rəqabətədavamlı məhsullar xarici ölkələrə ixrac olunur. Respublika iqtisadiyyatının inkişaf etdirilməsi və şaxələndirilməsi üçün bütün zəruri tədbirlər həyata keçirilir. Məlumdur ki, respublika Prezidentinin 7 iyul 2021-ci il tarixli Sərəncamı ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradıldı. Bu gün işğaldan azad olunan ərazilərdə bərpa işləri aparılır, gələcək inkişafın təmin olunması üçün lazımi infrastruktur layihələri həyata keçirilir. Ata-baba torpaqlarından məcburiyyət qarşısında köçmüş bölgənin əsl sahiblərinin öz yurdlarına qayıtması üçün vacib işlər görülür.**

İşğaldan azad olunan ərazilər, münbit torpağa, əlverişli iqlimə, çoxlu su ehtiyatına, təbii sərvətlərə və böyük turizm potensialına malikdir. Yeni yaradılan Qarabağ iqtisadi rayonu böyük ərazini əhatə edir. Bu iqtisadi rayona Xankəndi şəhəri, Şuşa şəhəri, Ağcabədi, Ağdam, Tərtər, Bərdə, Füzuli, Xocalı və Xocavənd rayonları daxildir.

Dövlətimizin başçısı cənab İlham Əliyev işğaldan azad olunmuş ərazilərə çoxsaylı səfərlər etmişdir. Göründüyü kimi, ölkə Prezidenti ərazidə gedən quruculuq işlərini daim diqqətdə saxlayır. Hazırda həmin ərazilərdə misli görünməmiş sürətli bərpa, abadlıq işləri davam etdirilir. Əminliklə demək lazımdır ki, çox yaxın zamanlarda işğaldan azad olunmuş ərazilərdə yaradılan şərait, yeni sənaye müəssisələri, yeni aqraryönümlü müəssisələr, turizm potensialı və s. Azərbaycan iqtisadiyyatının inkişafında əhəmiyyətli rol oynayacaqdır.

Qarabağ iqtisadi rayonunun yaradılması tezliklə bölgəni inkişaf etmiş bir məkana çevirəcəkdir.

Füzuli Beynəlxalq Hava Limanında artıq təyyarələrin uçuşları həyata keçirilir. Yaxın zamanlarda Laçın və Zəngilan hava limanlarının tikintisi başa çatdırılacaqdır. Prezident İlham Əliyevin regionlara mütəmadi səfərləri davam edir. Dövlət başçısı Tərtər rayonuna səfəri zamanı bir sıra yolların, binaların və başqa obyektlərin açılışında iştirak etmişdir. Məlumdur ki, 44 günlük Vətən müharibəsində Tərtərə külli miqdarda maddi və mənəvi ziyan dəymişdi. Mənfur düşmən döyüş meydanında cəsur Azərbaycan əsgəri ilə bacarmadıqda mülki obyektləri hədəf seçirdi. Tərtər tanınmaz günə düşmüşdü. Ancaq iqtisadi cəhətdən güclü Azərbaycan dövləti qısa müddətdə genişmiqyaslı quruculuq və abadlıq işləri həyata keçirərək Tərtəri yenidən gözəl bir məkana çevirdi.

Tərtər rayonunda raket və mərmi atəşi nəticəsində dağılmış yaşayış evləri, inzibati binalar, məktəb və digər yerlər yenidən inşa edildi və ya əsaslı təmir olundu.

30 il ərzində Tərtər-Suqovuşan-Talış avtomobil yolu düşmənin atdığı mərmilər və digər səbəblərdən tamamilə dağılmışdı. Dövlət başçısının müvafiq sərəncamına əsasən tikinti-quruculuq işləri nəticəsində müasir standartlara tam cavab verən uzunluğu 28,5 kilometr, eni 9 metr, iki hərəkət zolaqlı asfalt yol çəkildi.

Bölgə üçün xüsusi əhəmiyyətə malik olan Suqovuşan qəsəbəsinə və Talış kəndinə gediş-gəliş asanlaşdı. Ermənilərin dağıtdığı "Suqovuşan 1" və "Suqovuşan 2" kiçik su elektrik stansiyaları yenidən quruldu. Dövlət başçısı səfər zamanı qeyd olunan obyektlərin açılışını etdi, Talış-Tapqaraqoyunlu-Qaşaltı-Naftalan avtomobil yolunun təməlini qoydu. Uzunluğu 22 kilometr olan yol 2 hərəkət zolaqlı olacaqdır. Yolun çəkildiyi yerdə 6 kilometr ərazi minalardan təmizlənmişdir. Təmizlənmiş hissədə torpaq yatağı, suötürücü borular qoyulmuşdur. Yolun 1,8 kilometr hissəsində asfalt-beton örtüyün tikintisi həyata keçirilmişdir.





Qarabağda aparılan abadlıq-quruculuq işləri Azərbaycan iqtisadiyyatının inkişafına böyük təsir göstərəcəkdir. Ötən təsərrüfat ilində Tərtər, Yevlax, Goranboy, Bərdə rayonları Suqovuşan su anbarının suyundan yetərincə bəhrələndilər. Suvarma suyu ilə bağlı çətinliklər artıq arxada qalıb.

44 günlük Vətən müharibəsində qədim Bərdəyə də saysız-hesabsız mərmilər və qadağan olunmuş raketlər atıldı. Lakin Bərdə rayonunda da bərpa-quruculuq işləri aparılaraq dəymiş ziyan tamamilə aradan qaldırıldı. Prezident İlham Əliyev Bərdə rayonuna səfəri zamanı müasir standartlara cavab verən Bərdə peşə liseyinin açılışında iştirak etdi.

Qeyd etmək lazımdır ki, Bərdə-Ağdam avtomobil yolu və dəmir yolunda hərəkət dayanmış və yollar tamamilə yararsız vəziyyətə düşmüşdü. Hazırda hər iki yolda sürətli tikinti-quruculuq işləri aparılır. Dövlət başçısı İlham Əliyev Ağdama səfəri zamanı Bərdə-Ağdam avtomobil yolunun təməlini qoymuşdur. Yolun uzunluğu 44,5 kilometrdir. Avtomagistral 4 hərəkət zolaqlı olmaqla 1-ci texniki dərəcəyə uyğun olaraq inşa edilir. Bu yol 20 yaşayış məntəqəsini əhatə edəcəkdir.

Uzunluğu 45 kilometr olan Bərdə-Ağdam dəmir yolunda da hazırda sürətli tikinti-quruculuq işləri həyata keçirilir. 7,5-ci kilometrliyindən etibarən yol tamamilə yenidən qurulub. Bundan başqa, keçidlər, 2 ədəd qrunt suları üçün körpü tikilmişdi. Bərdə stansiyasının daxilində 3335 metr yeni yol çəkilmişdir. Bərdə dəmir yol stansiyasının qarşısında sərnişinlərin rahat minib düşməsi üçün perron qurulur. Yeni vağzal binasının tikintisi də nəzərdə tutulub.

İşğaldan azad olunmuş ərazilər bu gün yenidən yaradılır, kənd təsərrüfatı, sənaye sahələrinin inkişafı üçün mühüm tədbirlər həyata keçirilir. Yaxın zamanlarda bu bərəkətli torpaqlar ölkəmizin ərzaq təhlükəsizliyinin qarantı olacaqdır.

Bir sözlə, Qarabağ iqtisadi rayonu ölkə iqtisadiyyatının inkişafında mühüm rol oynayacaqdır.

**Vəli VƏLİYEV,**
**"Respublika".**

Respublika.- 12 yanvar.- 2022- ci il.- S. 4.